Ədəbiyyat QƏZETİ

# Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə Azərbaycan Yazıçılarının XIII Qurultayının nümayəndələri adından

# Müraciət

Möhtərəm cənab Prezident!

Azərbaycan Yazıçılarının ötən Qurultayından sonrakı zaman ərzində ölkəmizdə Sizin müdrik rəhbərliyiniz ilə dövlətimiz və xalqımız üçün bir çox taleyüklü işlər uğurla həyata keçirilmişdir. Sizin Müzəffər Ali Baş Komandanlığınız altında 44 günlük Vətən Müharibəmizin 2020-ci ilin noyabrında Böyük Zəfərlə nəticələnməsi təkcə müasir dövrümüzdə deyil, bütövlükdə Azərbaycan tarixində müstəsna önəmə malik parlaq qələbə, misilsiz nailiyyətdir.

Əzəli və əbədi vətən torpaqlarımızın, xüsusilə də, Sizin vurğuladığınız kimi, müqəddəs şəhərimiz olan Şuşanın işğaldan azad edilməsi bütün xalqımızla bərabər, Azərbaycanın çoxminlik yazıçı və şairlər ordusunu da ürəkdən sevindirdi. Qəlbimizi tükənməz qürur və iftixar hissi ilə dolduran bu möhtəşəm Qələbəyə, tarixi nailiyyətə, rəhbərlik etdiyiniz nəhəng quruculuq işlərinə, həmçinin Azərbaycan ədəbiyyatına, yazıçı və şairlərimizə göstərdiyiniz böyük qayğıya görə Sizə dərin minnətdarlığımızı, sonsuz şükranlığımızı bildiririk!

Möhtərəm cənab Prezident!

Azərbaycan Yazıçılarının XIII Qurultayının nümayəndələri olaraq bəyan edirik ki, Sizin müdrik rəhbərlik xəttinizi hər zaman olduğu kimi ürəkdən bəyənir, Ümummilli Lider Heydər Əliyev ənənələrinə əsaslanan mükəmməl daxili və xarici siyasətinizi dərin inamla dəstəkləyirik. Dövlətimizə və xalqımıza yeni-yeni zəfər və nailiyyətlər qazandıracağına, o cümlədən ədəbiyyatımızı və mədəniyyətimizi daha da inkişaf etdirəcəyinə qətiyyətlə inandığımız aydın fəaliyyət yolunuzda Sizə davamlı uğurlar arzulayırıq!

*26 oktyabr, Bakı*